Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər – N.F.Nəsibova, E.Ş.Qafarov

etiraz verən iddiaçı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin */ünvan: AZ1078, Bakı şəhəri, H.Əliyev 36/* nümayəndəsi Qədimova İlhamə Novruz qızının,

qarşı tərəf "Expressbank" ASC-nin */ünvan: AZ 1052, Bakı şəhəri, Nərimanov rayonu, Y.V.Çəmənzəminli 134C/* nümayəndəsi Emil Xəlilovun iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

16.01.2018 il tarixdə "Expressbank" ASC-yə məxsus "ASAN KREDİT" kombinasiya edilmiş əmtəə nişanının 35 və 36-cı sinifin xidmətləri üzrə qeydiyyatına qarşı (2014 1176 saylı qeydiyyat) Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsində göstərilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (bundan sonra – Dövlət Agentliyi) tabeliyində **"ASAN xidmət"** mərkəzləri yaradılmışdır. Artıq 5 ildir ki, **"ASAN xidmət"** mərkəzləri ölkə üzrə fəaliyyət göstərərək xidmətlərin "vahid məkan" prinsipi əsasında təşkilini təmin edir. Mərkəzlərin fəaliyyətinin vahidliyinin qorunub saxlanması və tanıdılması

məqsədilə istifadə edilən **"ASAN xidmət"** və **"asan"** adlı əmtəə nişanları Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində (bundan sonra – Komitə) qeydiyyatdan keçirilmiş (2012 1171 və 2013 0633 nömrəli qeydiyyat) və mühafizə altına alınmışdır. **"ASAN xidmət"** mərkəzlərində dövlət xidmətləri ilə yanaşı özəl xidmətlər də həyata keçirilməkdədir. 2016-cı ildən etibarən **"ASAN Kommunal"** mərkəzlərinin fəaliyyətə başlaması ilə vətəndaşlara xidmətlərin göstərilməsi imkanları genişlənmişdir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində mərkəzlər vasitəsilə göstərilən dövlət xidmətləri müəyyən edilmiş, eyni zamanda həmin Fərman ilə təsdiq edilən **"ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları"nın 4.6-cı bəndində** funksional-yardımçı xidmətlərin siyahısı müəyyən edilərək 4.7-ci bənddə bu xidmətlərin artırılması imkanları qeyd edilmişdir.Azərbaycan Respublikası Prezidentinin 2015-ci 11 fevral tarixli 463 nömrəli Fərmanına əsasən Dövlət Agentliyinin tabeliyində olan "İnnovasiyalar Mərkəzi" MMC vasitəsilə bütün növ ödənişlərin elektron qaydada və digər üsullarla ödənilməsini təmin edən **"ASAN ödəniş"** layihəsi həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyul tarixli 923 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə elektron viza verilməsi üçün **"ASAN Viza"** sistemi yaradılmış və qısa müddət ərzində fəaliyyətə başlamışdır. Ötən 5 il ərzində **"ASAN xidmət"** mərkəzlərinin uğurlu fəaliyyəti və "**asan"** əmtəə nişanı ilə həyata keçirilən digər uğurlu layihələr həm ölkə daxilində, həm də xarici ölkələrdə onun Azərbaycan brendi kimi tanınmasına səbəb olmuşdur. Bu uğurlu fəaliyyətdən vətəndaşları aldadaraq imiclərini yüksəltmək və öz təşkilatlarının lehinə faydalanmaq məqsədilə, ölkə daxilindəki müxtəlif hüquqi şəxslərin "asan"əmtəə nişanından başqa xidmətlərin göstərilməsi üçün istifadə etməsi halları qeydə alınmışdır. **"ASAN xidmət"** mərkəzlərinin əsas fəaliyyət prinsiplərini **operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq** təşkil edir. Bu prinsiplərin uğurla həyata keçirilməsi yüksək keyfiyyətli xidmətlərin göstərilməsinə və vətəndaş məmnunluğuna səbəb olmuşdur. Bu prinsiplərə əməl etmək iradəsində olmayan və fəaliyyətini onun əsasında qurmayan, lakin adında qeyd edilən brendi və ya onun rekvizitlərini istifadə edən hüquqi şəxsin istənilən xidməti müvafiq dövlət orqanının və ölkənin nüfuzuna xələl gətirir. Bu, eyni zamanda, Azərbaycan brendi kimi tanınan əmtəə nişanının sui-istifadəsinə səbəb olur. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə əsasən qeydiyyata alınmış əmtəə nişanının sahibi razılığı olmadan ona məxsus əmtəə nişanının əhatə etdiyi əmtəə və ya xidmətlərlə eyni, yaxud onlara oxşar əmtəə və ya xidmətlər üçün eyni və ya oxşar əmtəə nişanından (işarədən) üçüncü şəxsin ticarətdə istifadə etməsinin qarşısını almaqda müstəsna hüquqa malikdir (əgər belə istifadə nəticəsində əmtəə və ya xidmətlərin qarışdırılma ehtimalı yaranırsa). Qeyd edilənlərə əsasən, **"Expressbank"** Açıq Səhmdar Cəmiyyəti tərəfindən istifadə edilən və Komitə tərəfindən 35 və 36-cı siniflər üzrə göstərilən xidmətlərə münasibətdə qeydiyyata (2014 1176 nömrəli qeydiyyat) alınan **"ASAN KREDİT"** əmtəə nişanının istifadəsi məhz belə bir qarışıqlığa və müvafiq olaraq istifadəçilərin - vətəndaşların haqlı narazılığına səbəb olur. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən əmtəə nişanı sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşmasıdır (kombinasiyasıdır). **"Expressbank"** tərəfindən əmtəə nişanının 36-cı sinif ilə yanaşı 35-ci sinif üzrə də qeydiyyatdan keçirildiyinə görə, həmin əmtəə nişanı sahibi tərəfindən 36-cı sinifdə göstərilən xidmətlərin, yəni maliyyə fəaliyyəti və kredit-pul əməliyyatları ilə bağlı xidmətlərin reklamı üzrə xidmətlərin həyata keçirilməsini təmin etməlidir. "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.1-ci maddəsinə əsasən reklam – reklam istehlakçısının diqqətini reklam obyektinə müxtəlif vasitə və üsullardan istifadə olunmaqla istənilən formada cəlb etmək, marağını formalaşdırmaq və saxlamaq, əmtəəni bazarda tanıtmaq və satışını stimullaşdırmaq məqsədi ilə yayımlanan məlumatdır. Beləliklə, hansı subyekt (bank) tərəfindən icra edilməsindən asılı olmayaraq "Experssbank" 36-cı sinifdə göstərilən maliyyə fəaliyyətinə,

kredit-pul əməliyyatlarına münasibətdə reklam xidmətləri göstərməlidir. Bu isə sahibkarın digər sahibkarların xidmətlərini öz nişanı ilə reklam etməsi, yuxarıda qeyd edilən əmtəə nişanının anlayışı ilə ziddiyyətin yaranması deməkdir. Nəticə etibarilə, bu hal əmtəə nişanının doğru fəaliyyət üzrə qeydiyyata alınmadığını əks etdirir. Nəzərə alınmalıdır ki, **"ASAN KREDİT"** - əmtəə nişanı adından da göründüyü kimi konkret kredit-pul əməliyyatlarını ehtiva edir və o, 36-cı sinifdə göstərilən digər maliyyə fəaliyyətlərində istifadə edilə bilməz. Eyni zamanda, əmtəə nişanı bazarda fəaliyyət göstərən digər banklardan daha yaxşı şərtlərlə kreditvermə iddiasını özündə ehtiva edir. Bu sahədə ölkənin aparıcı bir neçə bankının kreditvermə şərtləri və prosesləri araşdırıldığı zaman mövcud əmtəə nişanı altında göstərilən xidmətin digər bankların xidmətləri ilə oxşar olduğu müşahidə edilir. **"ASAN KREDİT"** məhsulunu bazara təqdim edən hüquqi şəxs istehlakçıların aldadılmasına (çaşdırılmasına) səbəb olur, eyni zamanda haqsız rəqabətə yol verir. Belə ki, bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətləri "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən haqsız rəqabətə yol verir. Həmin Qanunun 3-cü maddəsinə əsasən istehlakçıların çaşdırılması haqsız rəqabətin formalarından biridir və 9-cu maddəyə əsasən əmtəənin istehlakçını çaşdıra bilən yanlış müqayisə edilməsi və onun reklam və ya informasiya materialı kimi açıqlanması qeyd edilən haqsız rəqabət formasının göstəricisidir. Adı qeyd edilən bank eyni şərtlərlə (sadəcə 1 faizlik endirimlə) kredit verilməsini təmin etməsinə baxmayaraq, istifadə etdiyi əmtəə nişanı ilə daha yaxşı xidmət göstərildiyi görüntüsü yaradaraq rəqiblərinə zərər vurur, onların işgüzar nüfuzuna xələl yetirir, ölkədə mövcud **"ASAN"** brendi ilə müqayisənin aparılması ilə istehlakçının çaşdırılmasına səbəb olur. **"Expressbank"ın** daha asan şərtlərlə kredit verməsi fikrinin cəmiyyətdə formalaşdırılması və haqsız reklam ilə vətəndaşlara doğru olmayan informasiyanın çatdırılması mövcud qanunvericiliyin tələblərinin pozulmasıdır. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin 1-ci hissəsinə əsasən əmtəə nişanları - qeydiyyatı barədə iddia sənədinin verildiyi gündən 10 il müddətinə qüvvədə olur və həmin Qanunun 19-cu maddəsinə əsasən əmtəə nişanına dair şəhadətnamə iddia edilmiş nişanın əmtəə nişanı kimi qeydə alınması faktını, onun ilkinliyini, əmtəələrə və göstərilən xidmətlərə aid nişan sahibinin müstəsna hüququnu təsdiq edir, beləliklə nişanın tərkibində olan elementlər həmin müddətə mühafizə altına alınır və ya alınmır. Bu hal qeydiyyata alınan əmtəə nişanının ən azından qeyd edilən müddətə aktual olmasını və adına uyğun xidmətlərin göstərilməsində istifadə edilməsi tələbini müəyyən edir. Qeyd edilənləri rəhbər tutataraq, **"ASAN KREDİT"**in 35 və 36-cı siniflər üzrə qeydiyyatdan keçirilməsi və göstərilən tərzdə xidmətlərin təqdim edilməsi müvafiq sahə üzrə qanunvericiliyin pozuntusudur. **"ASAN KREDİT"** əmtəə nişanının tərkibindəki ifadələr mühafizə altına alınmayıb, belə bir nişanın mövcud(bir çox bankın eyni şərtlərlə kredit verdiyi) şəraitdə istifadəsi istehlakçıların yanılmasına zəmin yaradır. Buna görə də, **ASAN** sözünün xüsusi bir məna kəsb etdiyini nəzərə alaraq, onun kredit-pul əməliyyatlarının reklamında yer alması və bu sahədə olan əmtəə nişanının əsas tərkib elementi kimi istifadəsi doğru deyil. Qeydiyyata 2014-cü il tarixi ilə alınan **"ASAN KREDİT"** təxminən 3 illlik müddətdə aktuallığını itirmişdir və hazırda istifadəsi müvafiq qanunvericiliyin pozulması hallarını yaradır. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun **5-ci maddəsinin "f" bəndinə görə**, əmtəələrin və ya **xidmətlərin xüsusiyyətləri, keyfiyyəti** və ya coğrafi mənşəyi ilə əlaqədar **istehlakçını yanılda bilən** əmtəə nişanları qeydiyyata alınmır. **"ASAN KREDİT"** adı ilə həyata keçirilən mövcud fəaliyyət **"ASAN"** nişanının daha yaxşı təşkil edilmiş xidmətlər, sadələşdirilmiş prosedurları əks etdirməsi haqqında formalaşmış olan ictimai rəyə zərbə vurur, eyni zamanda, xidmətin **"ASAN xidmət"** mərkəzləri tərəfindən təşkil edildiyini düşünən istehlakçıların yanılmasına və nəticədə haqlı narazılıqlarına səbəb olur. **"ASAN xidmət"** əmtəə nişanı 2012-ci ildə qeydiyyata alınmış və tərkibindəki elementlər mühafizə altına alınmışdır. Mərkəzlər artıq 5 ildir ki, fəaliyyət göstərir və hazırda mövcud **12 "ASAN xidmət", 2 "ASAN Kommunal" mərkəzi,**

**10 səyyar "ASAN xidmət"** avtobusu vasitəsilə göstərilən xidmətlər bütün ölkə ərazisini əhatə edir. Belə ki, Həmin Qanunun 6-cı maddəsinin 1-ci hissəsinin "a" bəndinə əsasən Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələrə və ya xidmətlərə aid başqa şəxsin adına əvvəl qeydə alınmış və ya qeydə alınmaq üçün iddia edilmiş əmtəə nişanları, həmçinin "ç" bəndinə əsasən əmtəə nişanının ilkinlik tarixindən əvvəl Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələr, yaxud xidmətlər üzrə başqa şəxsin adına mühafizə olunan və ya istifadə zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olan firma adları ilə eyni olan və ya onlara qarışdırılacaq dərəcədə bənzər olan nişanlar əmtəə nişanı kimi qeydə alınmır. **"ASAN xidmət"** mərkəzləri Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə yaradılmışdır və fəaliyyəti ilə **"ASAN XİDMƏT"** ifadəsinin və təsvirinin insanların şüurunda müvafiq prinsiplərin keyfiyyət göstəricisi kimi yer tapmasına nail olmuşdur. Dövlət Agentliyi tərəfindən həyata keçirilən birdən çox layihənin adında **"ASAN"** ifadəsi tərkib elementi kimi çıxış edir. Beləliklə, bu ad ilə formalaşan bütün xidmət və məhsullar sadə prosedurlarla yaxşı keyfiyyətin ərsəyə gəlməsi simvoluna çevrilmişdir. Bununla əlaqədar, göstərilən vəziyyətdə oxşar əmtəə nişanlarının istehsalçı və istehlakçıları yanıldacağı mütləqdir. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsinin 1-ci hissəsinə əsasən, əmtəə nişanı bu Qanunun 1-ci maddəsində verilmiş "əmtəə nişanı" anlayışına uyğun gəlmirsə və ya 5-ci maddənin tələbləri pozulmaqla qeydə alınmışsa, qeydiyyatın qüvvədə olduğu müddət ərzində, 6-cı maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş əsaslara görə isə qeydiyyata dair məlumatın rəsmi bülletendə dərc edildiyi tarixdən 5 il ərzində tamamilə və ya qismən etibarsız sayıla bilər. Qeyd edilənlərə əsasən, "Expressbank" Açıq Səhmdar Cəmiyyəti tərəfindən istifadə edilən və Komitə tərəfindən 35 və 36-cı siniflər üzrə göstərilən xidmətlər üzrə qeydiyyata alınan **"ASAN KREDİT"** əmtəə nişanının qeydiyyatının (2014 1176 nömrəli qeydiyyat) ləğv edilməsi barədə qərar verilməsi Apellyasiya şurasından xahiş edilmişdir.

Apellyasiya şurasının iclası zamanı **"Expressbank" ASC-nin** nümayəndəsi Emil Xəlilov bildirmişdir ki, **"ASAN KREDİT"** əmtəə nişanı 15 iyul 2014-cü il tarixində Expressbank ASC-nin adına qeydiyyata alınmış və 2014 1176 saylı şəhadətnamə verilmişdir. Əmtəə nişanının istifadə edildiyi müddət ərzində istehlakçının çaşdırılmasına və haqsız narazılığına səbəb olan hallar qeydə alınmamış, əksinə istehlakçılara daha rahat, şəffaf və operativ bank xidmətləri təqdim edilmişdir. **"ASAN KREDİT"** adı ilə verilən kreditlər, digər banklardan daha yaxşı şərtlərlə kredit verilməsi iddiasını deyil, bankdaxili qaydalara əsasən daha yaxşı təşkil edilmiş və sadələşdirilmiş prosedurları əks etdirir. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 36.2-ci maddəsinə əsasən, müştərilər bank fəaliyyətinin bütün növlərinin həyata keçirilməsi üçün bankları müstəqil seçirlər və bu məqsədlə bir və ya bir neçə bankın xidmətlərindən istifadə edə bilərlər. Həmin Qanunun 36.6-cı maddəsinə əsasən hər bir bank müştərilərlə bağladığı müqavilədə xidmət şərtlərini, o cümlədən faiz dərəcələrini, komisyon haqqlarını və göstərilən bank xidmətləri üçün digər ödənişləri, habelə bank tərəfindən verilmiş kreditlərin ödəniş şərtlərini və qaydalarını **müəyyən etməkdə sərbəstdir.** Göstərilənləri nəzərə alaraq etiraz ərizəsi qanunvericiliyin tələblərinə uyğun olmadığı üçün təmin edilməməsini xahiş etmişdir.

**"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi"nin nümayəndəsi İ.N.Qədimova Apellyasiya şurasının iclasında çıxış edərək, qarşı tərəfin işgüzar nüfuzu, əmtəə nişanının tərkibində olan digər söz və abreviaturanın Dövlət Agentliyinin fəaliyyəti və sahib olduğu əmtəə nişanı ilə ziddiyyət yaratmadığı nəzərə alınaraq "Expressbank" ASC-nin sahib olduğu mövcud qeydiyyatı ləğv edilmədən, həmin qeydiyyat ilə təsdiqlənən əmtəə nişanının tərkibindən "asan" sözünün çıxarılmasını təklif etmişdir.** "Expressbank" ASC-nin nümayəndəsi E. Xəlilov həmin təklifi qəbul etmədiyini bildirmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçının nümayəndəsi İ.N.Qədimovanın və qarşı tərəfin nümayəndəsi E.Xəlilovun çıxışlarını dinləyib, hesab edir ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki:

**"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi"nin** adına **"asan xidmət"** kombinasiya edilmiş əmtəə nişanı 16-cı, 42-ci və 45-ci siniflərin əmtəələri və xidmətləri üzrə **10.12.2012 il tarixində 2012 1171** nömrəsi altında qeydiyyata alınmışdır (ilkinlik tarixi – 22.10.2012);

**"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi"nin** adına **"asan"** adlı əmtəə nişanı 16-cı, 42-ci və 45-ci siniflərin əmtəələri və xidmətləri üzrə **31.05.2013 il tarixində 2012** 1171 nömrəsi altında qeydiyyata alınmışdır (ilkinlik tarixi – 11.04.2013);

**"Expressbank" ASC-nin** adına **"ASAN KREDİT"** kombinasiya edilmiş əmtəə nişanı **35-ci sinif üzrə *(36-cı sinifdə göstərilən xidmətlərin reklamı üzrə xidmətlər)*** və ***36-cı sinifin (maliyyə fəaliyyəti; kredit-pul əməliyyatları)*** xidmətləri üzrə 15.07.2014-cü il tarixində 2014 1176 nömrəsi altında qeydiyyata alınmışdır (ilkinlik tarixi – 23.06.2014).

**"Expressbank" ASC-ə məxsus "ASAN KREDİT"** kombinasiya edilmiş əmtəə nişanının qeydiyyatında (2014 1176) göstərilmişdir ki, **"əmtəə nişanında təsviri hissədən başqa qalan işarələr müstəqil hüquqi mühafizə obyetləri deyildirlər".** Belə olan halda həmin qeydiyyata alınmış əmtəə nişanında ***nə "asan" nə də "kredit" sözləri mühafizə olunan sözlər sayılmamışdır. "Kredit" sözü banklar tərəfindən bir növ fəaliyyətini göstərir.*** "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci ***maddəsinin "c" bəndində göstərilmişdir ki:*** c) əmtəələrin və ya xidmətlərin növünü, keyfiyyətini, miqdarını, təyinatını, dəyərini, habelə onların istehsal olunduğu yeri və tarixi və digər xüsusiyyətlərini göstərən nişanların qeydə alınmasına yol verilmir. Yəni istənilən bank öz fəaliyyətində **"kredit"** sözü istifadə etmək hüququna malikdir. Həmin əmtəə nişanının tərkibində **"asan"** sözü isə **"kredit"** sözü ilə bağlıdır, və onun üstün xüsusiyyətini göstərir. Əmtəə nişanının tərkibində **"asan"** sözü "kredit" fəaliyyətinin tərifləmə hissəsidir və istifadə zamanı digər şəxslərdən fərqlənərək daha üstün (yaxşı) formada kreditvermə sistemini özündə olduğunu əks edir. Kredit verilməsi fəaliyyətində **"asan"** sözü daimi istifadə edilməsi üçün bir şəxsə verilməsi düzgün hesab edilmir.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində əmtəə nişanının anlayışı verilmişdir: ***"əmtəə nişanı** — sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşmasıdır (kombinasiyasıdır)".* Həmin anlayışa istinad edərək Apellyasiya şurası hesab edir ki, **"Expressbank" ASC-ə məxsus "ASAN KREDİT"** kombinasiya edilmiş əmtəə nişanının tərkibində ancaq onun təsviri hissəsi əmtəə nişanının anlayışına cavab verir və əmtəə nişanının qeydiyyatında **"ASAN" və "KREDİT" sözləri olmalı deyil.**

**Apellyasiya şurasına təqdim edilən sənədlərdən aydın olur ki,** 2012-ci ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (bundan sonra – Dövlət Agentliyi) tabeliyində **"ASAN xidmət"** mərkəzləri tərəfindən Azərbaycan Respublikası ərazisində "**ASAN" sözü müxtəlif xidmətlər üzrə** geniş şəkildə istifadə olunmuş və istehlakçılar arasında **"ASAN xidmət"** mərkəzlərinə onun aidiyyətini və fərqlənmə qabiliyyətinə malik olduğunu göstərir.

Belə olan halda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin xahişini nəzərə alaraq **Apellyasiya şurası hesab edir ki, "Expressbank" ASC-ə məxsus "ASAN KREDİT"** kombinasiya edilmiş əmtəə nişanının qeydiyyatından (2014 1176 qeydiyyat nömrəsi) **"ASAN" sözü çıxarılmalıdır.**

Şərh edilənlərə əsasən və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrini, 6-cı maddəsinin "a" və "b" bəndlərini rəhbər tutaraq, Apellyasiya şurası

Qərara aldı:

1. “ASAN KREDİT” adlı kombinasiya edilmiş əmtəə nişanının 35 və 36-cı sinifin əmtəələri və xidmətləri üzrə 2014 1176 saylı qeydiyyatına qarşı “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi” tərəfindən verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və təmin olunsun.

2. “ASAN KREDİT” adlı kombinasiya edilmiş əmtəə nişanının tərkibindən “ASAN” sözü cıxarılsın.

3. Həmin Qərarın 1-ci və 2-ci bəndlərində göstərilənləri nəzərə alaraq, müvafiq dəyişikliklər Əmtəə nişanları Dövlət Reyestrində aparılsın.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

E.Ş.Qafarov